# REAL TV: teleməkanda milli maraqların qorunması platforması

**Azərbaycan teleməkanında xüsusi yeri olan REAL TV bu gün peşəkarlıq baxımından özü bir məktəb rolunu oynamaqdadır. Çünki burada Mir Şahin fonomeni var və bu adam artıq ustad telejurnalist statusunu çoxdan qazanmışdır. İndi bu ustadın ətrafında onun yetişdirdiyi bütöv bir kollektiv var. Bu yaradıcı heyət birmənalı olaraq, dövlətçiliyimizin möhkəmlənməsi, sosial ədalət prinsipləri və s. məsələləri prioritet mövzular kimi efirə çıxarır.**

Əlbəttə, dövlətçilik və milli maraqlar sistemi ilə bağlı mövzuları bir jurnalist kimi telekanala çıxarmaq çox böyük məsuliyyət, peşəkarlıq tələb edir. Bu mövzuların hər biri REAL TV- də yaradıcı kollektivin ortaya qoyduğu proqram formatlarında öz əksini tapmaqdadır. Təkcə 44 günlük Vətən müharibəsi dövründə REAL TV əməkdaşlarının cəbhə bölgəsindən hazırladıqları canlı reportajları xatırlamaq kifayətdir. Bu süjetlərdə jurnalistlərin obrazları əsgərlərimizin mətin, cəsur surətləri ilə birləşirdi. Bu reportajların hər birində Vətən sevgisi, yurdu canından əziz bilən əsgərimizə sonsuz rəğbət hissi özünü aydın göstərirdi.

REAL TV-nin rəhbəri Mir Şahin özü də qızğın döyüşlər gedən cəbhənin ön xəttində, haqqında qürurla danışdığı əsgərlərin yanında idi. REAL-ın digər əməkdaşları – İlqar Mikayıloğlu, Mahir Məmmədli, Kamil Eldaroğlu (hazırda başqa yerdə çalışır) cəbhə xəbərlərini odun, alovun qarsıdığı məkanlardan lentə alıb bizə çatdırırdılar. Biz həmin 44 gün ərzində REAL-ın necə intensiv işlədiyinin şahidi olduq.

Vətən müharibəsi zəfərlə bitdi və biz bu zəfərin publisistik təhlillərini, post müharibə dövrünün reallıqlarını REAL-ın bütöv konsepsiyasında görməkdəyik. Bu zəfəri xalqımızın birliyi, Ali Baş Komandan İlham Əliyevin çevik diplomatiyası, hərbi rəhbərliyin ustalığı ilə qazandıq. Bütün bunlar REAL TV-nin proqram formatlarının prioritet mövzularıdır. Telekanalın milli maraqlarımıza, dövlətçiliyimizə birbaşa (!) xidmət konsepsiyası bu müharibəni bitmiş hesab etmir.

Hər cəhətdən məğlub olub geri çəkilmiş Ermənistanın Qarabağda törətdiyi görünməmiş vandallığı, təslim aktına imza atıb sülh müqaviləsini müxtəlif bəhanələrlə qəbul etməməsi, beynəlxalq görüşlərdə Azərbaycana böhtanlar atması, düşmənçilik münasibətlərini açıqcasına nümayiş etdirməsi müharibənin hələ bitmədiyini göstərir. REAL məhz bu kontekstdən çıxış edərək btün proqramlarında xalqı ayıq-sayıq olmağa çağırır. Bu çağırış isə daha çox “Mir Şahinin vaxtı” proqramında özünü göstərir.

REAL-ın Zəfər savaşı ilə bağlı hazırladığı telefilmləri Vətən müharibəsinin video tarixi olaraq sabahkı tədqiqatçıların müraciət edəcəkləri arxiv sənədləri kimi də qiymətləndirmək olar. Tam mənası ilə orijinallıq kəsb edən bir telefilmi yada salmaq istərdim: “Dəmir yumruq”! Prezident, Ali Baş Komandan İlham Əliyevin tarixə yazdığı “Dəmir yumruq” ifadəsi bu filmin leytmotividir. Mir Şahin özünün müəllifi olduğu bu filmdə Azərbaycanda



yaşayan azsaylı xalqlardan olan əsgər oğulların 44 günlük Vətən müharibəsində göstərdikləri Vətənə sədaqət, torpağa sevgi faktlarını dəqiq epizodlar və dəqiq ünvanlarla meydana qoyur.

Bu telekanalın ən mükəmməl və orijinal proqram formatı olan “Mir Şahinin vaxtı” milli mənafe ilə ictimai maraqlar eyni vaxtda ortaya qoyur. Bu proqram həftənin ən aktual hadisələrini seçməyi və hadisələr ətrafında ustad jurnalist təhlilləri aparmağı ilə tamaşaçını təkcə maarifləndirmək yox, həm də milli maraqlarımız naminə fəaliyyətə təşfiq edir. Mir Şahin bu proqramın hər birinin sonunu “sapı özümüzdən olan baltaları” ifşa ilə yekunlaşdırır. Belə faktlar isə az deyil. O “baltalara” ən cəsarətli zərbələri bu proqram endirir. Proqramın orijinallığı Mir Şahinin hadisələrə publisistik münasibəti, təhlillərində və hadisələrə yanaşmasında qurduğu kompozisiya ilə, mətnin ifadəsindəki heyrətamiz leksikası, sintaksisi, semantikası ilə bağlıdır.

Əlbəttə, REAL-ın “Xəbərlə” proqramının özü də hadisələrə orijinal yanaşması ilə seçilir. REAL-ın xəbərə operativ münasibətini bəzən “Euronews”un fəaliyyətinə bənzədənlər də olur. Buna hardasa haqq qazandırmaq olar. Lakin mən çox istərdim ki, oxucu onu da nəzərə alsın ki, REAL TV hər yarım saatdan bir xəbərləri yeniləşdirirsə, “Euronews” bir neçə xəbəri bəzən həftə boyunca təkrar təqdim etməkdədir.

Bu telekanalın fəaliyyətinin əsasında məhz milli maraqlar, dövlətçiliyimizə xidmət kimi müqəddəs prinsiplər dayanır və bu yerdə təbii olaraq ideoloji məqamlar vacib faktora çevrilir. Ümummilli liderimiz Heydər Əliyevin “Müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı – Azərbacan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq” kimi ümummilli hədəf REAL-ın fəaliyyət proqramıdır.

REAL TV ciddi və zəngin tematikası ilə qısa müddətdə geniş tamaşaçı marağı qazanmışdır. Bu telekanalın tematikası sırasında şəhid mövzusu ilk sırada dayanır. Teleknalın, istisnasız olaraq, bütün proqramlarının sağ sütunu igid şəhidlərimizin portretləri ilə təqdim olunur. Şəhidlərimiz haqqında müntəzəm efirə çıxarılan teleesselərdə REAL-ın jurnalisti öz içindən gələn qürur, kədər duyğularıyla bu obrazların kim olduqlarını, nəyə qadir olduqlarını bir daha bizə xatırladır.

REAL-ın ayrıca bir proqram formatı kimi hər gün efirə çıxardığı “İntervyü” verilişi günün aktual məsələlərinə bağlı mükəmməl ekspert təhlillərini kütləvi auditoriyaya təqdim edir. Onu da qeyd etməliyəm ki, bu proqramın hadisələrə, aktual problemlərə dərindən bələd olan ekspert seçimi var. Bu günlərdə xarici media qurumlarının Azırbaycana qarşı qərəzli mövqeləri kimi aktual bir mövzu bu sahənin ustadı olan Rauf Arifoğlunun baxış bucağında çox şeyi bizə aydınlaşdırdı.

Bu proqramda Mir Şahinin ictimai rəydə tanınmış adamlarla –



Çingiz Aytmatov, Mixail Qusman, Oljas Süleymenov və başqaları ilə apardığı müsahibələrin əks-sədasını xatırlatmaq istərdim. Bu məqamda mən yenə İranın Ermənistana “sevgisi”, Azərbaycana açıq düşmənçilik mövzusuna qayıtmaq və bu mövzunun “İntervyü” proqramlarında necə yüksək səviyyədə təhlil olunduğunu bildirmək üçün jurnalist İlqar Mikayıloğlunun, Kamran Qasımovun apardığı müsahibələri yada salmaq istərdim.

Lap bu günlərdə jurnalist Kamran Qasımov İran dövlət adamlarının Azərbaycana qarşı haqsızlığının səbəblərini açıqlamaq üçün proqrama Cənubi Azərbaycan Milli Oyanış Hərəkatının rəhbəri Mahmudəli Çöhrəqanini dəvət etmişdi və bu yerdə müsahib İranın – İslam dövlətinin Azərbaycana qarşı haqsız “düşüncələrini” aydın və danılmaz faktlarla necə ifşa etdi, bunu tamaşaçılar çox yaxşı izlədilər.

Belə dəqiq ifşa epizodları REAL-ın “Azvision” proqramında da yayımlanır. Yaxından tanıdığım tamaşaçıların hamısı bu pıroqramın aparıcısı Vüsal Məmmədovun hadisələri təhlil bacarığını yüksək qiymətləndirir.

Telekanalın hadisələrə orijinal yanaşması çox maraqlıdır. Bu yanaşmalar həm də proqramın adlarında özünü göstərir. “Göstərir radio”. İlk baxışda təəccüb doğurur: radio necə göstərə bilər? Amma göstərir: REAL-ın güzgüsündə efirə çıxan proqramın qonaqları sərbəst şəkildə istedadlı jurnalist Elnarə Təhməzovanın suallarını cavablandırırlar...

Sonda bildirək ki, bu gün REAL-ın qurucusu Mirşahin Ağayevin anadan olduğu gündür. 60 yaşın başlanğıcında BDU jurnalistika fakültəsinin istedadlı və nüfuzlu yetirməsini, milli jurnalistikamızın fədakar nümayəndəsini səmimi təbrik edir, onun rəhbərlik etdiyi, Azərbaycan teleməkanında qısa bir müddətdə geniş tamaşaçı auditoriyası qazanmış REAL-a milli maraqlarımıza xidmət yolunda yeni uğurlar arzulayırıq.

**Cahangir MƏMMƏDLİ,**
**BDU-nun kafedra müdiri,**
**media nəzəriyyəçisi**